# ƏN ÇOX SORUŞULAN SUALLAR

## (Təkrar ali və ya orta ixtisas təhsili)

**Sual 1. Təkrar ali və ya orta ixtisas təhsilinə necə qeydiyyatdan keçməliyəm?**

Ali və orta ixtisas təhsil müəssisələrinin Əlavə təhsilin ali və orta ixtisas təhsili növü üzrə qəbul olmaq istəyən şəxslər ilk öncə **"portal.edu.az"** saytında qeydiyyatdan keçməlidir. Bunun üçün əsas səhifəyə daxil olaraq "**Qeydiyyat**" düyməsinə sıxıb uyğun səhifəyə keçid edin.

**Sual 2. Portalda artıq qeydiyyatım varsa, yenidən sistemdə qeydiyyat etməliyəm?**

Portalda artıq qeydiyyatınız varsa, yenidən qeydiyyatdan keçməyinizə ehtiyac yoxdur.

**Sual 3. Şifrəmi unutmuşam. Necə bərpa etməliyəm?**

Şəxsi kabinetə giriş zamanı şifrənizi unutduğunuz halda əsas səhifədən "Şifrəni unutdun?" düyməsinə klikləyin və açılan pəncərədə ilk öncə elektron poçt ünvanını daxil edin. Açılan növbəti pəncərədə mobil nömrənin son 4 rəqəmi daxil edin. Nömrəyə gələn təsdiq kodu daxil edildikdən sonra yeni şifrə təyin edilməlidir.

**Sual 4. Sistemə daxil olduqdan sonra hansı xidməti seçməliyəm?**

Sistemə daxil olduqdan sonra "Əlavə təhsilə elektron sənəd qəbulu" xidmətini seçməli və məlumatlarınızı formaya uyğun doldurmalısınız.

**Sual 5. Təkrar ali və ya orta ixtisas təhsilinə müraciət etmək üçün hansı qəbul xəttini seçməliyəm?**

AR vətəndaşları Qeyri-DİM xətti ilə, əcnəbilər isə digər müvafiq seçimləri etməlidirlər.

**Sual 6. Şəxsi məlumatlarımı necə doldurmalıyam?**

AR vətəndaşları üçün şəxsi məlumatlarınız avtomatik əks olunur. Təsdiq edirsinizsə, növbəti addımı sıxmalısınız. Əcnəbilər müvafiq xanalara şəxsi məlumatlarını daxil etməlidirlər.

**Sual 7. Şəxsi məlumatlarımdakı elektron poçt və mobil nömrə mənə aid deyil.**

Siz qeydiyyatdan keçdiyiniz zaman istifadə etdiyiniz mobil nömrə və elektron poçt şəxsi məlumatlarınızda əks olunmuşdur.

**Sual 8. Qəbul məlumatlarımı necə daxil etməliyəm?**

Qəbul olmaq istədiyiniz təhsil pilləsi, təhsil səviyyəsini, müəssisəni, ixtisası, təhsilalma formasını və ödəniş formasını seçməlisiniz. İxtisas şifrəsi avtomatik əks olunur.

**Sual 9. Sənədlərimi hansı formatda əlavə edim? Tək-tək bir neçə səhifə yüklənmir.**

Sənədlərinizi pdf formatında, hamısını bir faylda əlavə etməyiniz məsləhət görülür. Bir neçə səhifəni eyni xanaya əlavə edə bilməyəcəksiniz. Doldurulması vacib sənədlər xanası müraciət et düyməsinə sıxdıqda qırmızı rəng alır.

**Sual 10. Hansı xanalar məcburidir?**

Müraciət et düyməsini sıxdıqda qırmızı rəng alan bütün xanalara tələb olunan sənədi əlavə etməlisiniz.

**Sual 11. Əlavə sənədlər əlavə etmək istəyirəm, amma xana sayı azdır.**

Digər sənəd xanasının yanındakı + düyməsinə sıxmaqla xana sayını artıra bilərsiniz.

**Sual 12. Sənədlərimin qəbul edilib-edilmədiyini necə öyrənəcəm?**

Bu barədə müraciət etdiyiniz müəssisə sizə sistem və sms vasitəsilə məlumat göndərəcəkdir. Şəxsi kabinetinizi davamlı şəkildə izləməyiniz xahiş olunur.

**Sual 13. Hazırda vətəndaş sonuncu kurs tələbəsidirsə, diplom yerinə nə yükləməlidir?**

Əgər təhsil müəssisəsini cari ildə bitirmisinizsə və diplomunuzu əldə etməmisinizsə, bitirdiyiniz təhsil müəssisəsinin təqdim etdiyi bitirmə barədə arayışı yükləyə bilərsiniz.

**Sual 14. Məzun olub, diplomu olmayan vətəndaşlar diplom yerinə nə yükləməlidir?**

Məzun olduqları müəssisədən bitirmə haqqında arayış alıb, skan versiyada yükləməlidir.

**Sual 15. Əvvəlki təhsil məlumatını necə daxil edim?**

Orta ixtisas təhsili pilləsi və ya bakalavriat üzrə təhsil aldığınız əvvəlki təhsiliniz üzrə diplom məlumatlarını daxil edirsiniz. Müvafiq məlumatlar seçimdə çıxmadıqda, **Digər** seçməklə əl ilə daxil edə bilərsiniz.

**Sual 16. Eyni vaxtda iki müəssisəyə müraciət göndərə bilərəmmi?**

Xeyr, AR vətəndaşları eyni zamanda yalnız bir müraciət göndərə bilər *(əcnəbilər üçün bu qayda istisnadır).*

**Sual 17. Sənədlər hansı formatda yüklənməlidir?**

Sənədlər **JPG, PNG, PDF** hər üç formatda yüklənə bilər.

**Sual 18. Bakalavr diplomu ilə təkrar orta ixtisas təhsilinə qeydiyyat edə bilərəm?**

Xeyr, edə bilməzsiniz. Bakalavr diplomu ilə təkrar ali təhsilə, subbakalavr diplomu ilə isə təkrar orta ixtisas təhsilinə müraciət edə bilərsiniz.